İPƏK YOLU, No.1, 2024, səh.5-9
https://doi.org/10.30546/1810-911X.2024.1.5

# MİLLİ İQTİSADİYYATDA İNVESTİSİYALAR ÜZRƏ MÖVCUD VƏZİYYƏTİN İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

**S.O. Babayeva, F.V. Süleymanov, S.R. Yaqubzadə**

Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
e-mail: nihat-020@mail.ru

**Xülasə.** Hazırda bütün dünyada investisiyalar uğrunda ciddi mübarizələr getdiyini və investisiyaların cəlb edilməsinin hər bir ölkənin iqtisadiyyatı üçün olduqca vacib olduğunu nəzərə alaraq məqalədə ölkə iqtisadiyyatına yönələdilən investisiyalaların rolu, eyni zamanda daxili və xarici investisiyaların həcmi təhlil edilmişdir.

**Açar sözlər:** İnvestisiya, daxili investisiya, xarici investisiya, iqtisadi inkişaf, investor.

**ECONOMIC ASSESSMENT OF THE CURRENT SITUATION ON INVESTMENTS IN THE NATIONAL ECONOMY**

**S.O. Babayeva, F.V. Suleymanov, S.R. Yagubzade**
*Azerbaijan State Agrarian University, Ganja, Azerbaijan*

**Abstract**. Considering that there is a serious struggle for investment all over the world and attracting investment is very important for the economy of each country, the article analyzes the role of investments directed into the country's economy, as well as the volume of domestic and foreign investment.
**Keywords:** Investment, internal investment, foreign investment, economic development, investor.

**ЭКОНОМИЧЕСКАЯ ОЦЕНКА СОВРЕМЕННОЙ СИТУАЦИИ ПО ИНВЕСТИЦИЯМ В НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКЕ**

**С.О. Бабаева, Ф.В. Сулейманов, С.Р. Ягубзаде**
*Азербайджанский Государственный Аграрный Университет, Гянджа, Азербайджан*

**Резюме.** Учитывая, что во всем мире идет серьезная борьба за инвестиции и привлечение инвестиций очень важно для экономики каждой страны, в статье анализируется роль инвести-ций, направляемых в экономику страны, а также объем внутренних и иностранных инвестиций.
**Ключевые слова:** Инвестиции, внутренние инвестиции, иностранные инвестиции, эконо-мическое развитие, инвестор.

## 1. Giriş

Ölkə iqtisadiyyatının fasiləsiz şəkildə inkişafının əsas meyarı kimi çıxış edən investisiyaların kəmiyyətinin hər ötən ilə nisbətdə artırılması əsas hədəf istiqaməti kimi seçildiyindən, müxtəlif ölkələr bu sahədə təxirəsalınmaz müəyyən addımlar atmaqdadır. Hazırda dünyanın bir çox ölkələrində daxili və xarici investisiyaların kəmiyyətinin artırılması sahəsində müəyyən profilaktik tədbirlər həyata keçirilməkdədir. Belə ki, müasir dövrün tələblərinə cavab verən fasiləsiz iqtisadi inkişafı zəruri edən iqtisadi siyasətin reallaşdırılmasının müxtəlif səbəbləri mövcuddur. Bunlardan ən başlıcası, deyərdik ki, son zamanlar qloballaşma meyillərinin artması ilə əlaqəlidir. Belə ki, qlobal iqtisadi mühitdə baş verən müxtəlif meyillərin təsiri ilə investisiya layihələrinin kəmiyyətinin artırılması hesabına iqtisadi artımın təmin edilməsi artıq iqtisadi mühitin fasiləsiz inkişafı nöqteyi-nəzərindən

vaciblik təşkil edir [2]. Belə ki, istər Covid-19 pandemiyasının dağıdıcı iqtisadi təsirlərinin aradan qaldırılması, istərsə də, onun fəsadlarının kompensasiya edilməsi kimi amillərin neytrallaşdırılması dövlətin iqtisadi siyasətinin əsas tərəfi kimi çıxış edir.

## 1. Ölkə iqtisadiyyatında investisiyaların mövcud vəziyyəti

Milli iqtisadiyyatın dayanıqlığını təmin etmək məqsədilə, ölkəmizdə müxtəlif tənzimləyici siyasətlər reallaşdırılmışdır. Onu da qeydə edə bilərik ki, belə iqtisadi gerilələmələrin aradan qaldırılması zamanı müxtəlif iqtisadi alətlərdən istifadə edilməsi geniş yayılmış iqtisadi təcrübədir. Hazırda ölkəmizdə fəsadların aradan qaldırılması, iqtisadiyyatın əvvəlki dövrə gətirilməsi nöqteyi-nəzərindən müəyyən addımlar atılmaqdadır. Belə addımlar içərisində xüsusilə yerli istehsalçıların az faizli kreditlərlə təmin edilməsi məsələləri xüsusi aktuallıq kəsb edir [4].

Ölkəmizdə milli iqtisadiyyatın hansı sahəsinə investisiya axının daha yüksək olduğuna keçid etməzdən əvvəl istəyərdik ki, ümumi investisiya axınlarının mövcud vəziyyətinə nəzər yetirək. Belə ki, diaqram 1-də ümumi investisiya axınlarının ümumi kəmiyyətinə yer verilmişdir. Hazırda bu kəmiyyətin müəyyən istiqamət üzrə artırılması dövlətin iqtisadi siyasətinin əsas tərəfi kimi çıxış edir. Diqqət edildiyi zaman ölkəmizdə milli iqtisadiyyatın müxtəlif sahələrinə yönləndirilən investisiyaların kəmiyyəti 2014-cü ildə 21.9 mlrd manat olmuşdur. Bu kəmiyyət sonrakı illərdə müəyyən dərəcədə artmaq-azalmaqla variasiya etmişdir. Diaqram 1-ə diqqət edildiyi zaman investisiyaların kəmiyyətinin ən yüksək həddə olduğu dövrün məhz 2018-ci il olduğunun görə bilərik [6]. Belə ki, həmin dövrdə milli iqtisadiyyatın müxtəlif sahələrinə yönləndirilən investisiyaların ümumi kəmiyyəti təqribən 25.9 mlrd manat olmuşdur ki, bu da baza ili ilə müqayisədə 4 mlrd manat daha çoxdur. 2021-ci ildə ölkə üzrə milli iqtisadiyyata yönləndirilmiş ümumi investisiyaların kəmiyyəti 25.3 mlrd manat olmuşdur ki, bu da 2014-cü il ilə müqayisədə təqribən 15.6 faiz daha çoxdur.




**Diaqram 1.** İqtisadiyyata yönəldilən investisiyalar, mln. manat
**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Görülən odur ki, əslində son bir neçə ildə ümumi investisiyaların kəmiyyəti artırılmışdır. Bu hal bəzi illərdə kəskin, bəzi illərdə isə nisbətən az faizli olmuşdur. Digər tərəfdən, milli

iqtisadiyyatın əsas sahələrinin inkişafına yönləndirilən investisiyaların azaldığı dövrlərə nəzər yetirsək görərik ki, azalmalar daha çox pandemiyanın və digər bu qəbildən olan təbii və iqtisadi geriləmələrin baş verdiyi dövrlərdə təsadüf edir. Bu da, milli iqtisadiyyatın əsas sahələrinin inkişafı sahəsində həyata keçirilən profilaktik tədbirlərin lazımı səviyyədə effektivliyə malik olduğunu göstərir.

## 2. Daxili və xarici mənbələrdən yönələn investisiyaların iqtisadiyyatın inkişafına təsiri

Hazırda ölkəmizdə proteksionist mövqedən çıxış edərək milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə edilən investisiyaların kəmiyyətinin daxili mənbələr hesabına təşkil edilməsinə çalışılır. Bundan başqa burada, daxili mənbələrlə yanaşı xarici mənbələrdən cəlb edilən investisiyaların müəyyən hissəsinin, əsasən, ölkəyə cəlb edilməsi zamanı müştərək müəssisələrin yaradılması və burada hasilatın pay bölgüsü üzrə söz sahibinin yerli sahibkara verilməsi əsas istiqamət kimi müəyyənləşdirilir və bu istiqamətdə addımlar atılır [9].




**Diaqram 2.** İqtisadiyyata yönəldilən xarici investisiyalar, mln. manat
**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Diaqram 2-nin məlumatlarına diqqət edildiyi zaman aydın olur ki, əslində milli iqtisadiyyatın digər sahələrində ümumi investisiya axınları ilə yanaşı, həm də xarici investisiya axınlarının yönləndirilməsi əsas tərəf kimi müəyyənləşdirilmişdir. 2014-cü ildə bu kəmiyyətin təqribən 9.2 mlrd manat olduğunu, sonrakı illərdə artaraq 2016-cı ildə 16.2 mlrd manat olduğunu görmək olar. 2020-ci ildə yuxarıda haqqında qeyd etdiyimiz Covid-19 pandemiyasının dünyada miqyasını genişləndirməsi burada xarici investisiyaların kəmiyyətinin əhəmiyyətli şəkildə azalmasına gətirib çıxarmışdır. Belə ki, 2020-ci ildə ümumilikdə xarici investisiyaların kəmiyyəti 10.4 mlrd manat səviyyəsinə kimi enmişdir [7]. Ancaq sonrakı post-pandemiya dövründə bu halın neytrallaşdırılması uğurla tamamlanmışdır. Belə ki, 2021-ci ildə 12.7 mlrd manat, sonrakı bir ildə isə, yəni 2022-ci ildə 14.9 mlrd manat səviyyəsində xarici investisiya edilmişdir. Göründüyü kimi, ümumi investisiyaların təqribən 56-63%-i məhz xarici investisiyalar hesabına edilmişdir. Buradan əldə olunan nəticə odur ki, əslində milli iqtisadiyyatın əsas təkanverici investisiya təminatı məhz xarici mənbələr hesabına formalaşır. Odur ki, xarici investisiyaların ölkəyə cəlb edilməsi sahəsində qarşıda dayanan məsələlərin vaxtında həll edilməsi bu sahədə iqtisadi inkişafa müsbət təsir edir [2].

Hazırda ölkəmizdə yeni investisiya sahələri yarandığını nəzərə alaraq yeni investisiya layihələrində daxili investorlar da böyük inamla iştirak edirlər. Belə ki, diaqram 3-də iqtisadiyyatın ayrı-ayrı sahələrinə yönləndirilən daxili investisiyaların kəmiyyətinə diqqət edildiyi zaman ötən illərlə fərqi aydın müşahidə etmək mümkün olur. Daxili investisiyaların kəmiyyətinə diqqət edildiyi zaman görürük ki, 2014-cü ildə bu kəmiyyət təqribən 12.7 mlrd manat təşkil etsə də, 2016-cı ildə azalaraq 6.5 mlrd manat olmüşdür. Azalmanın bu dərəcədə kəskin olmasının səbəbi ümumdünya maliyyə böhranı ilə əlaqəli olmuşdur. Hazırda isə bu hal kifayət qədər yaxşılaşmışdır. Belə ki, 2022-ci ildə iqtisadiyyatın müxtəlif sahələrinə istiqamətlənən investisiyaların kəmiyyəti artaraq 14.7 mlrd manat təşkil etmişdir [5]. Son bir neçə ili müqayisəli təhlil etsək, onda görərik ki, baza ili ilə müqayisədə kəskin dəyişiklik göstərməsə də, minumum səviyyə ilə cari il arasındakı fərq kifayət qədər yüksəkdir.




**Diaqram 3.** İqtisadiyyata yönəldilən daxili investisiyalar, mln. manat
**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Belə ki, 2016-cı il ilə müqayisədə 2022-ci ildə iqtisadiyyata yönləndirilən daxili investisiyanın kəmiyyəti 2.26 dəfə artmışdır. Buradan görünür ki, qısa müddətdə ölkə iqtisadiyyatının dəyişən şəraitə uyğunlaşması məsələləri kifayət qədər yüksək olmüşdür. Daxili investisiyaların kəmiyyətinin bu dərəcə adaptasiya olma xüsusiyyəti əslində yaxşı hal kimi qiymətləndirilə bilər. Belə ki, iqtisadiyyatda daralma dövrlərində investisiyaların kəmiyyətinin azaldılması və iqtisadi böyümə dövrlərində artması milli iqtisadiyyatın dayanıqlığını təmin edən əsas meyar kimi qiymətləndirilə bilər. Bunu nəzərə alaraq iqtisadiyyatda daxili investisiyaların həcmindəki variasiya o qədər də qorxuducu hal kimi dəyərləndirilməməlidir.

**Nəticə.** Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın bütün sahələrinə həm daxili, həm də xarici investisiya axını kifayət qədər yüksək səviyyədədir. Gələcəkdə daxili və xarici mənbələr hesabına nəzərdə tutulan investisiyaların kəmiyyətinin artırılması məsələləri isə istisnalıq təşkil etmir. Bununla da deyə bilərik ki, daxili və xarici mənbələr hesabına edilən investisiyaların kəmiyyət göstəricilərindəki dəyişiklik kəskin xarakter daşımır və bu artma-azalmaya təsir edən məqamlar sırasında həm daxili, həm də xarici mühit amilləri əsas yerdə dayanır.

**Ədəbiyyat**

1. Aslanzadə İ. (2009), İnvestisiya layihələrinin təşkili və idarə olunması, Bakı, 421.
2. Atakişiyev M., Nurəliyeva R. (2012), İnvestisiya fəaliyyətinin təşkili, Bakı, 284.
3. Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019, 16 fevral).
4. Əliyev Q. (2008), İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 278.
5. http://www.customs.net
6. http://www.economy.gov.az
7. http://www.stat.gov.az
8. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu. (2022, 22 iyun), Bakı.
9. Sabiroğlu N. (2006), Qloballaşma və xarici investisiyalar. Bakı, 316.